

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 224 (21.376)

*15 noyabr 2015-ci il, bazar*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası 2015-ci il noyabr ayının 17-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilsin:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinlərinin seçilməsi
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 noyabr 2015-ci il*

## Rəssamlar Parkının yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Realist Azərbaycan rəssamlığının əsasını qoyan istedadlı rəssam Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi, yaradıcılığının tədqiqi və təbliği sahəsində bir sıra işlər görülmüş, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılmış, muxtar respublika Rəssamlar Birliyinin sərgi salonuna onun adı verilmiş, 120 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhəri, İstiqlal küçəsi 52-də Bəhruz Kəngərlinin heykəli qoyulsun.
2. Həmin ərazi Bəhruz Kəngərli adına Rəssamlar Parkı adlandırılsın.
3. Naxçıvan Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 noyabr 2015-ci il*

## Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə beynəlxalq sərnişindaşıma üçün yeni avtobuslar alınmışdır

Muxtar respublikada yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, müasir xidmət imkanlarına malik avtovağzalların, iritutumlu və rahat avtobusların istifadəyə verilməsi daxili və beynəlxalq sərnişindaşıma xidmətinin səviyyəsini artırmışdır.

Bu tədbirlərin davamı olaraq noyabrın 14-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə beynəlxalq sərnişindaşımaların həyata keçirilməsi üçün 2 ədəd "MAN Neoplan" markalı iritutumlu avtobus təqdim olunmuşdur.





Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada nəqliyyat sisteminin hərtərəfli inkişafı təmin edilmişdir. Son illər 51 ədəd müasir avtobusun alınaraq həm daxili, həm də beynəlxalq marşrutlarda istifadəyə verilməsi sərnişinlərin rahatlığını təmin etmiş, onlara göstərilən xidmətin səviyyəsi artmışdır. Alınan yeni avtobuslar da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Mirsənani Seyidov göstərilən diqqətə görə muxtar respublika nəqliyyatçıları adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Hər bir ölkədə daxili və beynəlxalq sərnişindaşıma xidməti mövcuddur. Bu gün muxtar respublikada daxili sərnişindaşıma xidməti müasir tələblər səviyyəsində qurulmuşdur. Beynəlxalq sərnişindaşıma sahəsində də xidmətin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzindədir. Vaxtilə bu sahədə xidmətin təşkili üçün Almaniya istehsalı olan müasir avtobuslar alınmışdı. Bu gün isə Türkiyə istehsalı olan yeni avtobuslar muxtar respublikada beynəlxalq sərnişindaşımanın həyata keçirilməsi üçün istifadəyə verilir.

Qeyd olunmuşdur ki, beynəlxalq sərnişindaşımanın artması ölkə daxilində turizmin və kiçikhəcmli ticarətin inkişafına təkan verir. Turizmin və kiçikhəcmli ticarətin inkişafı isə ölkənin iqtisadi imkanlarını artırır. Bu gün dünyanın müxtəlif ölkələrində bu məqsədlə aksiyalar keçirilir, hava nəqliyyatında qiymətlər endirilir, yeni avtobus marşrutları açılır, xidmətin səviyyəsi yüksəldilir. Çünki bu tədbirlər ölkəyə turist cəlbi və kiçik ticarətin inkişafında mühüm amildir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikaya alınıb gətirilən yeni avtobuslar sərnişinlərin rahatlığının təmin olunması ilə yanaşı, həm də yeni iş yerlərinin açılmasına, beynəlxalq marşrutların sayının artmasına imkan verəcəkdir. Ona görə də avtobuslardan səmərəli istifadə olunmalı, sərnişinlərə nümunəvi xidmət göstərilməli, gələcəkdə yeni avtobuslar alınmalı və bunun da nəticəsində muxtar respublikanın beynəlxalq sərnişindaşımada payı artırılmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirmiş, yeni avtobusların açarlarını sürücülərə təqdim etmiş və onlara işlərində uğurlar arzulamışdır.

Avtobuslara baxış zamanı məlumat verilmişdir ki, "Euro-4" standartlarına cavab verən hər iki avtobus müasir dizaynı, üstün texnoloji təchizatı və rahatlığı ilə seçilir. Hərəkətli oturacaqlarla təmin olunan 44 və 48 yerlik avtobusların geniş salonu və yük yeri vardır. Avtomatik sürət qutusuna malik olan və qənaətcilliyi ilə seçilən avtobuslar kondisioner, GPS və simsiz internet şəbəkəsi ilə təchiz edilmiş, kamera-nəzarət sistemi və 3 televizor quraşdırılmış, soyuducu qoyulmuşdur. Qapılar açılarkən sürücü kabinəsindəki monitor vasitəsilə avtobusa minən və düşən sərnişinləri izləmək mümkündür.

Yeni avtobuslardan Naxçıvan-Bakı-Naxçıvan və gələcəkdə açılması nəzərdə tutulan Naxçıvan-Batumi-Naxçıvan marşrutları üzrə istifadə olunacaqdır.

Ali Məclisin Sədri muxtar respublikada beynəlxalq sərnişindaşıma sahəsində tədbirlərin davam etdirilməsi və yeni marşrutların açılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Bayrağımız qürur mənbəyimizdir

***Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında "Bayrağımız qürur mənbəyimizdir" mövzusunda tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynayıb və müstəqil dövlətə xas olan atributlar təsis edilib. Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında qərara əsasən, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul edilib. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli qərarı ilə həmin bayraq üçrəngli – mavi, qırmızı və yaşıl zolaqdan ibarət olan bayraqla əvəzlənib. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üçrəngli Dövlət Bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib. Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində taleyüklü məsələlərin müzakirə edildiyi həmin sessiyada "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərar qəbul olunub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 17 noyabr 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında Sərəncam imzalanıb. Bu sərəncama görə, hər il noyabrın 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Sonra Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədovun, təşkilatın Qadınlar Şurasının sədri Könül İsmayılovanın, partiya üzvü Uğur İsgəndərovun çıxışları olub.

Qeyd edilib ki, müstəqilliyimizin simvolu olan dövlət atributlarının təbliği, onların daşıdığı məna və mahiyyətin gənc nəslə aşılanması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər bölgələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixində imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Çıxış edənlər bildiriblər ki, zəngin tarixi irsdən yaranaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

Tədbirə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Şəhərlə kənd arasındakı fərq aradan qaldırılır

*Bunu müasir yaşayış məntəqəsinə çevrilən Yuxarı Yaycı kəndinin timsalında da görmək olar*

**Ruzi-bərəkət fəsli olan qızılı payız yenə yurdumuza qədəm qoyub. Havalar soyumaqda, təbiət yaşıl donunu dəyişməkdədir. Qədim diyarımızda digər fəsillər kimi, payızın da özünəməxsus özəllikləri var. Məhz bu özəlliklər payızın gözəlliklərinə yeni çalarlar qatır. Belə günlərin birində yolumuz Şərur rayonunun Yuxarı Yaycı kəndinədir.**

**Yol boyu müasirliyə qovuşmuş kəndlər bir-birini əvəz edir. Gördüyümüz mənzərələr insan qəlbində isti duyğular yaradır. Bu gün muxtar diyarımızın hansı guşəsinə üz tutsaq, belə təəssüratları yaşaya, sevinc hisləri keçirə bilərik. Ona görə ki, ötən dövr ərzində bu yaşayış məntəqələrində həyata keçirilən quruculuq işləri, yaşıllaşdırma tədbirləri insanların yaşam tərzini kökündən dəyişib, evlərə firavanlıq gətirib. Yuxarı Yaycı da belə kəndlərimizdən biridir.**




*Kənd adamları minnətdarlıq edirlər*

Kəndə çatmamışdan gözüm bu yaşayış məntəqəsini əhatəyə alan dağlara sataşır. Möhtəşəmlik, əzəmət rəmzi olan bu dağlar Yuxarı Yaycıya bir gözəllik bəxş edib. Bəysal, Kölgəli, Cənnətqayası, Qızılçəvirmə dağları sanki kəndin keşiyində dayanıblar.

Kəndə daxil oluram. Budur, yeni tikililərdən birinin – kənd mərkəzinin qarşısındayıq. Kəndə müasir qəsəbə görkəmi verən bu və digər obyektlər muxtar respublikada bərqərar olmuş sabitliyin, inkişaf və tərəqqinin nəticəsidir. Bunun belə olduğunu bir qədər sonra görüşüb söhbət edəcəyimiz kənd sakinləri də təsdiqləyəcəklər.

Kənd mərkəzinin qarşısında sakinlərlə salamlaşırıq, onları yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə təbrik edirik, kənd adamlarının payız qayğıları ilə maraqlanırıq. Uzun illər kənd məktəbinin direktoru işləmiş, hazırda təqaüddə olan Miribrahim Eminov deyir:

– Muxtar respublika rəhbərinə minnətdarıq. Yuxarı Yaycı heç vaxt görmədiyi günlərinə qovuşub. Gündəlik xırda-para qayğılarımıza qalanda isə, nə deyim? İlin payız fəsli kənd adamları üçün daha çox qayğılarla dolu olan bir dövrdür. Erkən yazdan əkin sahələrinə çıxan, məhsul bolluğu yaradan insanlar payızda çəkdikləri zəhmətin bəhrəsini toplamaqla, qarşıdan gələn qışa hazırlıqla məşğul olurlar. Son illər muxtar respublikamızda payız fəsli üçün daha çox xarakterik olan bir ənənə formalaşmaqdadır. Bu, kompleks quruculuq tədbirləri çərçivəsində inşası başa çatdırılmış obyektlərin açılış mərasimləridir. Hər il bu sevinc regionun on-on beş kəndində yaşanır.

Kənd sakini, təqaüdçü müəllim Məhəmməd Cəfərov da söhbətə qoşulur:

– Ötən ay bu binaların açılışı oldu. Muxtar respublika rəhbəri kənd sakinlərini təbrik etdi, həmin obyektlərdə çalışanlara gələcək fəaliyyətlərində uğurlar arzulamaqla qurulanların, tikilənlərin qorunmasının vacibliyini vurğuladı.

Miribrahim müəllim söhbətə müdaxilə edir: Bu gün sevincimin həddi-hüdudu yoxdur. Yaşımın bu vaxtında Yuxarı Yaycının belə çağlarını görmək mənə də qismət oldu. Elə bil ki, cavanlaşmışam. Bugünkü cavanlara isə sözüm odur ki, tikilənləri qorusunlar. Bu həcmdə quruculuq işi asan başa gəlməyib.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mirqasım Eminov ilə müasir iş şəraiti yaradılmış kənd mərkəzinə daxil oluruq. Mirqasım müəllim bildirir ki, 1132 nəfər sakini, 300 təsərrüfatı olan Yuxarı Yaycı Şərur rayonunun səfalı yaşayış məntəqələrindən biridir. O, kənddə həyata keçirilən kompleks quruculuq tədbirləri barədə həvəslə danışır: quruculuq tədbirlərindən biri kəndə gələn avtomobil yolunun yenidən qurulmasıdır. Kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, mədəniyyət evi üçün otaqların və 45 yerlik iclas zalının ixtiyarımıza verilməsi bu təşkilatlarda çalışanların məsuliyyətini daha da artırıb. Mərkəzdə istifadəyə verilən rabitə evində poçt bölməsi yaradılıb, kommunal ödənişlərin qəbulu, dövri mətbuatın, gündəlik danışıq və internet kartlarının satışı təşkil olunub. Həmçinin kəndə 6 kilometr uzunluğunda fiber-optik xətt çəkilib, sürətli internetdən istifadə imkanları yaradılıb.

Əhalinin sağlamlığı diqqət mərkəzində saxlanılaraq mərkəzdə feldşer-mama məntəqəsi üçün də otaqlar ayrılıb. Burada ilkin tibbi yardım avadanlıqları qoyulub.

Kənd sakini Zakir Əliyev məntəqədə yaradılan şəraitdən razılıqla danışır. Deyir ki, sakinlər arasında səhiyyə maarifi işi aparılması diqqət mərkəzində saxlanılır, yaşlı insanlara, körpələrə evlərində tibbi xidmət göstərilir. Kənd camaatı da onlara göstərilən xidməti dövlətimizin öz vətəndaşlarına qayğısı kimi dəyərləndirir.

*Təhsildə qazanılan uğurlar bundan sonra daha çox olacaq*

Yuxarı Yaycı kəndində təhsilin inkişafına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, yaşayış məntəqəsinin təhsil ocağını bitirən Miryasin Eminov, Rəşid Bəşirov və başqaları müxtəlif elm sahələri üzrə fəlsəfə və elmlər doktorlarıdır. Mərhum tarixçi-alim Əli Əliyevi həmyerliləri ehtiramla xatırlayırlar. Məktəbin direktoru Qəmər Nəbiyeva deyir ki, yeni məktəb binası belə alimlərin sayının çoxalmasına imkan verəcək, daha böyük uğurlar qazanılmasını təmin edəcək.

Hazırda məktəbdə 70 şagird oxuyur, onların təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olur. Ötən dərs ilində məktəbin 2 məzunu olub. Onların hər ikisi göstərilən etimadı doğruldaraq ali məktəb tələbəsi adını qazanıb.

Gələcək perspektiv nəzərə alınaraq 144 şagird yerlik tikilmiş yeni məktəb binası 2 mərtəbədən ibarətdir. Məktəbdə 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, bufet və idman zalı vardır. Məktəblilər pulsuz dərsliklərlə təmin olunublar. Onlar zəngin fonda malik kitabxanadan istifadə etmək imkanı qazanıblar.

Məktəbin pedaqoji kollektivi ilk günlərdən yeni təhsil ocağında işin səmərəli qurulmasına çalışır, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verir, məktəbdənkənar və sinifdənxaric məşğələlərin səmərəli təşkilinə çalışır. Məqsəd doğma Azərbaycanımızın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ulu keçmişini, ümumilikdə, mədəniyyətimizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi bugünkü məktəblilərə aşılamaq, onları doğma yurd yerinə məhəbbət ruhunda formalaşdırmaqdır.

Kənd ziyalılarının toplaşdığı məktəbdə Yuxarı Yaycı kəndinin tarixi və bu toponimin etimologiyası ilə maraqlanıram. Bildirirlər ki, vaxtilə Dərələyəz və Biləv mahallarında iki Yaycı kəndi olduğu iddia edilir. XIX əsrdə Qafqazda isə Yaycı adında 8 kənd mövcud olub. Hazırda Naxçıvanda 3 kənd Yaycı adını daşıyır ki, bunların biri Culfa, ikisi isə Şərur rayonundadır. Elmi ədəbiyyatlarda "Yaycı" sözünü qədim türk tayfası olan yayıcılar tayfası ilə əlaqələndirirlər. Mənşəcə səlcuq-oğuz tayfalarından sayılan bu tayfanın bir qismi Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşmış, yaşadıqları əraziyə bu tayfanın adını vermişlər. Bu qənaəti AMEA-nın müxbir üzvü Adil Bağırov da təsdiq edir.

* * *

Bu isə Yuxarı Yaycı kəndində istifadəyə verilən yeni xidmət mərkəzidir. Xidmət mərkəzi cari ildə kənddə aparılan quruculuq işləri çərçivəsində inşa edilib. Binada bərbərxana və mağaza fəaliyyət göstərir. Ticarət və məişət xidmətlərin təşkili sakinlərin rahatlığına şərait yaradıb. Mağazada zəruri ərzaq və sənaye mallarının satışı təmin olunub.

Xidmət mərkəzinin qarşısında kəndin ən yaşlı sakini ilə görüşürük. Hələ də gümrah görünən, 100 yaşını bu gün-sabah tamamlayacaq Kərim Şərifov qəzet işçisi olduğumuzu bilib, ilk olaraq, minnətdarlıq hislərini dilə gətirir. Deyir ki, qədim diyarımızın bütün bölgələrində görülən bu işlər insanlara böyük qayğı göstərilməsinin ifadəsidir. Dünənki mağazamız hara, məktəbimiz hara, bu gün gördüklərimiz hara? – deyən el ağsaqqalından kənd haqqında bir qədər ətraflı danışmağı xahiş edirik.

– Yuxarı yaycılılar öz kəndlərinə bağlı insanlardır. Sovet dövründə kənddə heç bir gözəçarpan quruculuq tədbiri aparılmamışdı. Bu gün ovaxtkı arzularımız həyata keçib. Sağ olsun muxtar respublika rəhbərini. Bu gün kənd adamına nə lazımdırsa, hamısı ilə təmin olunmuşuq. Kənddə 18 təbii bulaqdan istifadə olunur. Məşədiabbas, Əsgərbəy, Teyfəli bulaqları ilboyu çağlayır. Elə təkcə Ağbulaq çeşməsi bütün kəndi içməli və təsərrüfat suyu ilə təmin edir. Su varsa, həyat da var. Dövlətimiz yaycılıların həyat şəraitini daha da yaxşılaşdırıb.

* * *

Yuxarı Yaycıdan ayrılarkən son illər muxtar respublikada şəhər və kənd arasında olan fərqlərin aradan qaldırılması istiqamətində görülən işləri göz önünə gətirdim. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Yuxarı Yaycı Kənd Mərkəzinin açılışında bununla bağlı dediyi sözləri xatırladım: ***"Ölkəmizdə hər bir sahənin inkişafı qəbul olunmuş dövlət proqramlarına uyğun olaraq həyata keçirilir. Bu gün muxtar respublikada aparılan quruculuq tədbirləri də ölkəmizdə icra olunan dövlət proqramlarının tərkib hissəsidir. Bu il muxtar respublikanın ucqar dağ kəndlərindən olan Yuxarı Yaycı kəndi tamamilə abadlaşdırılmış, əhalinin rahat yaşaması üçün lazımi infrastruktur yaradılmışdır. Kənddə uşaqların yaxşı təhsil alması üçün müasir tədrisin tələblərinə cavab verən məktəb binası, dövlət strukturlarının fəaliyyəti üçün kənd mərkəzi tikilmiş, xidmət mərkəzi sakinlərin istifadəsinə verilmiş, yollar abadlaşdırılmış, təbii qazın və elektrik enerjisinin fasiləsiz verilişi təmin olunmuşdur. Bu da dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir".***

**Muxtar MƏMMƏDOV**

## Kreditləşmə prosesi cari ilin ötən dövründə uğurla davam etdirilib

*Muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan digər kredit təşkilatları tərəfindən iqtisadiyyatın ayrı-ayrı sahələrinə verilən kreditlər həmin sahələrdə məhsul istehsalının artımına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun artırılmasına, ümumilikdə, muxtar respublika iqtisadiyyatının bütün sahələrinin inkişafına birbaşa və dolayı yolla təsir edir.*

İqtisadiyyatın müxtəlif sahələri üzrə aparılan kreditləşmə prosesi 2015-ci ilin ilk 10 ayında da banklar və bank olmayan kredit təşkilatları tərəfindən uğurla davam etdirilmişdir. Ümumilikdə, 2015-ci ilin yanvar-oktyabr ayları ərzində muxtar respublika iqtisadiyyatının inkişafı üçün verilmiş kreditlər 61 milyon 945 min manat olmuşdur. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 milyon 497 min manat artım deməkdir. Verilmiş kreditlər sənaye, tikinti, ticarət, nəqliyyat, daşınmaz əmlakla əlaqədar ipoteka krediti, digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi üçün istehlak, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Bu sahələr içərisində kənd təsərrüfatı mühüm yerlərdən birini tutur. Belə ki, kənd təsərrüfatı ilə məşğul olan fermerlərə, sahibkarlara bəhs olunan dövrdə 17 milyon 541 min manat kredit verilmişdir. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 8 min manat çoxdur. Kənd təsərrüfatı sahəsinə yönəldilmiş kreditlər 10 ay ərzində verilmiş ümumi kreditlərin 28,3 faizini təşkil etməkdədir. Kənd təsərrüfatının da ayrı-ayrı sahələri üzrə verilən kreditlərin həcmində artım tempi müşahidə olunmaqdadır. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı sahələri arasında kreditlərin daha çox artımla müşahidə olunduğu sahə heyvandarlıqdır. Bu sahəyə verilmiş kreditlərin həcmi 14 milyon 641 min manat olmuşdur ki, bu da kənd təsərrüfatı üzrə verilmiş kreditlərin 84 faizini təşkil edir. Bu müddət ərzində kartofçuluğun inkişafına 169 min manat kredit verilmişdir. Cari ildə əvvəlki illərlə müqayisədə soğan və qarğıdalı əkinlərinə maraq daha da artmış və bu məqsədlə müvafiq olaraq bu sahələrə 49 və 37 min manat həcmində kredit verilmişdir. Quşçuluğun inkişafına verilmiş kreditlərdə də ötən ilin müvafiq dövrü ilə müqayisədə 657 min manat artım olmuş və 721 min manat təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə verilmiş kredit resurslarında artım sənaye, daşınmaz əmlak və nəqliyyat, rabitə sahələrində də müşahidə edilmişdir. Belə ki, sənayenin inkişafı məqsədilə cari ilin 10 ayı ərzində 14 milyon 188 min manat kredit verilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 milyon 921 min manat çoxdur. Qeyd olunan dövr ərzində daşınmaz əmlakla əlaqədar 5 milyon 348 min manat ipoteka krediti verilmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 369 min manat çoxdur. Nəqliyyat və rabitə sahəsinin inkişafı məqsədilə verilmiş kreditlər isə bu müddət ərzində verilmiş ümumi kreditlərin 10 faizini təşkil etməklə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 906 min manat artmış və 5 milyon 921 min manat təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə cəlb edilmiş kreditlərin həcmində azalma, əsasən, sosial və şəxsi xidmətlərin göstərilməsi ilə əlaqədar verilmiş istehlak kreditlərində müşahidə edilmişdir. Belə ki, cari ilin 10 ayı ərzində verilmiş istehlak kreditlərinin həcmi 13 milyon 13 min manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 144 min manat azdır.

**Hafiz İSMAYILBƏYLİ**
**Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin mütəxəssisi**

## Günəş elektrik stansiyası Naxçıvanın enerji təminatında mühüm rol oynayacaq



Müasir dövrdə enerji təhlükəsizliyinin təmin olunması istənilən region üçün ən vacib məsələlərdəndir. Muxtar respublikamızda da bu istiqamətdə mühüm layihələr həyata keçirilir. Belə layihələrdən biri də Babək rayonunun Xalxal kəndi yaxınlığında tikintisinə cari ildə başlanılmış yeni Günəş elektrik stansiyasıdır. 20 meqavat gücə malik olacaq stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltech" şirkəti arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Tikintidə olarkən burada layihə üzrə xeyli iş görüldüyünün şahidi olduq. Belə ki, 5 hissədən ibarət olan ərazidə Günəş panelləri üçün bütün dayaqlar, Günəş panellərinin 90 faizi quraşdırılıb, 11 ədəd elektrik yarımstansiyası qoyulub. Hazırda burada istehsal ediləcək enerjinin şəbəkəyə ötürülməsi üçün kabel xətlərinin çəkilişi, ərazidə abadlıq və yaşıllaşdırma tədbirləri aparılır. Tikinti-quraşdırma işlərinin vaxtında başa çatdırılması üçün əraziyə 30-dan artıq müxtəliftəyinatlı texnika və 400 nəfərdən çox işçi cəlb olunub.

Qeyd edək ki, bu iri layihə alternativ enerji mənbəyi kimi gələcəkdə Naxçıvanın enerji təminatının tamamilə yerli ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaqdır.

**Xəbərlər şöbəsi**

# Gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilib

***Bu gün Azərbaycanda gənclərlə iş dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov deyir ki, dövlət gənclər siyasəti gənclərin cəmiyyətdə layiqli yer tutmalarına hesablanıb. Gənclər siyasətinin əsas istiqamətləri “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilib.

Dövlət başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə imzaladığı “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Dövlət proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin problemlərinin həllinə nail olmaqdır.

Gənclərin inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb həm öz inkişaflarını təmin etməsi, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmasıdır.

***Dövlət gənclər siyasətinin həyata keçirilməsində gənclər birbaşa iştirak edirlər***

“Sürətlə inkişaf etməkdə olan ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclər fəal iştirak edirlər. Bu gün gəncliyin innovativ potensialından geniş istifadə olunaraq cəmiyyətin maraqlarının təmin edilməsinə şərait yaradılır”, – deyən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov bildirdi ki, hazırda istənilən sahədə gənclər öz fəallığı ilə seçilirlər. Muxtar respublikamızda həyata keçirilən gənclər siyasəti çox uğurludur və bu gün öz bəhrəsini verir. Heç bir gənc diqqət və qayğıdan kənarda qalmır. Onu da deyim ki, gənclərlə bağlı hər hansısa bir qərar qəbul olunursa, bu, mütləq gənclərin iştirakı ilə müzakirə edilir. Biz çalışırıq ki, hər zaman gənclərlə görüşlər, disputlar keçirək. Təbii ki, bununla gənclərin fikirlərini öyrənir və işimizi onların istəklərinə uyğun qurmağa səy göstəririk.

***Dövlət proqramının qarşıya qoyduğu vəzifələr uğurla həyata keçirilib***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri qeyd etdi ki, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlər – gənclərin hərtərəfli inkişafı üçün şəraitin yaradılması, onların mükəmməl təhsil almaları, məşğulluğunun artırılması, dövlət qulluğunda və idarəetmədə irəli çəkilməsi, gənc alim və tədqiqatçıların sosial təminatının yaxşılaşdırılması və məişət problemlərinin həlli, gənclərin məlumatlılığının artırılması, gənc əlillərin sosial müdafiəsinin gücləndirilməsi muxtar respublikamızda uğurla həyata keçirilir. Gənc ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da gənclərlə bağlı dövlət siyasətinin prioritetləri sırasındadır. Gənclərin mənzillə təmin olunması üçün Naxçıvan şəhərində yeni yaşayış kompleksləri tikilir, mənzillər ipoteka krediti ilə gənclərə verilir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev söhbət zamanı bildirdi ki, gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili, intellektual səviyyəsinin artırılması, gənclər təşkilatları ilə iş və digər sahələrdə təkcə cari ildə 200-ə yaxın tədbir keçirilib. Bunlara əlamətdar günlərlə bağlı konfranslar, yığıncaqlar, gənclərin asudə vaxtının təşkili məqsədilə yay məktəblərinin keçirilməsi, vətənpərvərlik hissinin aşılanması istiqamətində yarışların təşkili, filmlərin nümayişi, gənclərin mükafatlandırılması kimi tədbirlər daxildir.

“Gənclərə vətənpərvərlik hissinin aşılanması, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması və onların vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması məqsədilə onların mütəmadi olaraq hərbi hissələrdə əsgər və zabitlərlə görüşü təşkil olunub”, – deyən həmsöhbətim qeyd etdi ki, bununla yanaşı, muxtar respublikanın rayon və şəhərlərində vətənpərvərlik mövzusunda teatr tamaşaları göstərilib. Yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili və intellektual qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlarının üzə çıxarılması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında yeniyetmələr arasında “Nuh yurdu” intellektual oyununun şəhər və rayon birincilikləri keçirilib. Gənclərin tarixi abidələrlə daha yaxından tanış olması, tariximizin unudulmaması və onların gələcək nəsillərə çatdırılması məqsədilə tarixi abidələrə və muzeylərə ekskursiyalar təşkil olunub. Bundan əlavə, 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar gənclərin iştirakı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkına ekskursiya təşkil edilib, Babatada “Ətraf mühiti qoruyaq”, Uzunoba Su Anbarı ətrafında “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir”, Şərur, Kəngərli və Sədərək rayonlarında “Ətraf mühitin mühafizəsi hər birimizin vəzifəsidir” devizi altında təmizlik aksiyaları keçirilib.

Qeyd edək ki, yeniyetmə və gənclərə vətənpərvərlik ruhunun aşılanması, onlarda vətənə məhəbbət hislərinin formalaşması istiqamətində “Gənc Vətənpərvərlər” İctimai Birliyi fəaliyyət göstərir. “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyi gənclərin intellektual yaradıcılıq tədbirlərinə marağının yüksəldilməsi sahəsində maarifləndirmə işi aparır, məktəblilər, tələbələr arasında intellektual oyunlar və intellektual yaradıcılıq tədbirləri təşkil edir, intellektli gənclərin aşkara çıxarılması üçün xüsusi proqramlar, layihələr hazırlayıb həyata keçirir.

***Gənclər Fondu da bu sahədə tədbirləri davam etdirir***

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu 2015-ci ilin ötən dövrü ərzində gənclərin intellektual inkişafı, onların asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində bir sıra tədbirlər həyata keçirib”, – deyən fondun icraçı direktoru Məmməd Babayev bildirdi ki, fond yaranan gündən ənənəvi görüşlər daim diqqətdə saxlanılır. Təkcə 2015-ci ilin ötən dövründə gənclərlə bağlı və onların iştirakı ilə silsilə tədbirlər keçirilib. Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi ilə birgə Gənclər Günü ilə əlaqədar olaraq təşkil edilən, 400-ə yaxın gəncin iştirak etdiyi ənənəvi görüşdə təhsildə, dövlət qulluğunda, ictimai işlərdə və digər sahələrdə fərqlənən 85 gənc mükafatlandırılıb. Sağlamlıq imkanları məhdud uşaqlara vətənpərvərlik hislərinin aşılanması, onların psixoloji vəziyyətinin yüksəldilməsi və istedadlı uşaqların üzə çıxarılması məqsədilə bu qəbildən olan uşaqlar arasında Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Yazıçılar Birliyi ilə birgə bədii qiraət müsabiqəsi, Rəssamlar Birliyi ilə birgə vətənpərvərlik mövzusunda rəsm müsabiqəsi keçirilib.

Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətini və tarixini təbliğ etmək, yeniyetmələrin intellektual səviyyələrini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də onların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədini daşıyan “Nuh yurdu” intellektual oyununun Şərur, Babək, Culfa, Ordubad rayonlarında keçirilən rayon birinciliklərini də fond Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi ilə birgə təşkil edib.

Eyni zamanda yeniyetmə və gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması, dünyagörüşünün artırılması məqsədilə aidiyyəti təşkilatlarla birgə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, əsgərlər və zabitlər üçün “Əsgər atası” və “Uzaq sahillərdə” filmləri nümayiş etdirilib. Bundan başqa, Təhsil Nazirliyi ilə birgə ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə “Ümummilli lider Heydər Əliyev və Naxçıvan” mövzusunda inşa yazı müsabiqəsi keçirilib. 100-ə yaxın inşa yazının təqdim olunduğu müsabiqədə 13 yazı işi münsiflər heyəti tərəfindən seçilib və qaliblər mükafatlandırılıb.

Məmməd Babayev dedi ki, gənclər siyasəti bütün sferaları əhatə etdiyindən bu sahədə görülən işləri sadalamaqla bitməz. Hazırda 2014-cü ilin aprel ayından başlayan 3 xarici dil üzrə – rus, ingilis və fransız dilləri üzrə kurslarımız davam etdirir. 5 ay müddətində aparılan kurslarda iştirak edən gənclər yekunda 3 mərhələli imtahan verir və nəticəsi qənaətbəxş hesab olunanlara sertifikat təqdim edilir. Bununla yanaşı, fond tərəfindən gənc alimlərin məlumat bazası yaradılıb. Gənc istedadların məlumat bazasının yaradılması istiqamətində işlərimiz davam etdirilir. Bu məlumatların gələcəkdə kitab şəklində çapını da nəzərdə tuturuq.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən 2015-ci ilin ötən dövrü ərzində keçirilən müxtəlif layihələrdə, yaradıcılıq müsabiqələrində və bilik yarışlarında muxtar respublika üzrə 6 minə yaxın gənc iştirak edib, 250-yə yaxın gənc isə mükafatlandırılıb.

***Gənclər siyasəti mövsümi deyil***

Artıq müşahidəçi qismindən birbaşa proseslərin iştirakçısına çevrilən gənclərimizin inkişafı və cəmiyyətdə layiqli yer tutması üçün aparılan işlər daimi xarakter daşıyır. Bu təkcə bir proqrama sığışdırılan məsələ deyil. Nə qədər ki, müstəqil Azərbaycan var, ölkəmizdə Heydər Əliyev yolu davam etdirilir, gənclərimiz öz çiyinlərində dövlət qayğısını hiss edəcəklər.

Bu gün gənclərin potensialından düzgün istifadə olunması, heç şübhəsiz ki, gələcəyimizin sığortasıdır. Qısaca desək, gənclərə münasibət həmin dövlətin gələcəyinə münasibətdir. Muxtar respublikamızda gənclər sahəsində görülən işlər dövlətimizin gələcəyi haqqında ciddi düşünüldüyünün göstəricisidir.

**Gülnar YÜZBAŞIYEVA**

***Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında tanınmış cərrah, SSRİ Xalq həkimi Mehdi Bağırovun anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir.***

# Tanınmış cərrah Mehdi Bağırovun 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkil etdiyi tədbiri səhiyyə nazirinin müavini Sona Məmmədova açaraq Mehdi Bağırovun milli cərrahiyyənin inkişafındakı xidmətlərindən danışmışdır.

Qeyd olunmuşdur ki, o, hələ sovet hakimiyyəti dövründə Azərbaycanda “SSRİ xalq həkimi” adına layiq görülmüş nadir həkimlərdən biri idi. Mehdi Bağırov İkinci Dünya müharibəsində Berlinədək döyüş yolu keçmiş, minlərlə döyüşçünü həyata və cəbhəyə qaytarmışdır. Ordudan tərxis olunduqdan sonra Naxçıvanda milli cərrahiyyənin bünövrəsini qoymuş, yeni nəsil cərrahların yetişməsində xüsusi rolu olmuşdur.

Xalq arasında böyük nüfuzu olan Mehdi Bağırov hələ 1959-cu ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, müxtəlif orden və medallarla təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi ilə 2005-ci ildə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, SSRİ Xalq həkimi Mehdi Bağırovun anadan olmasının 90 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmiş və konfransın materialları kitab şəklində çap olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-cərrahı Sabir Novruzov Mehdi Bağırovun həyat və fəaliyyəti barədə məlumat vermiş, onun hələ sovet dövründə “Mediçinskaya qazeta”da dərc olunmuş “Sizin rəyiniz, doktor” adlı məqaləsində yeni nəsil cərrahların yetişməsinə xüsusi önəm verdiyini xatırlatmışdır.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanası Travmatoloji şöbəsinin ordinatoru Adil Məmmədov Mehdi Bağırovun Naxçıvanda cərrahiyyənin inkişafındakı rolundan danışmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-cərrahları Cəbi İsmayılovun, Etibar Babab əylinin müxtəlif mövzularda məruzələri dinlənilmişdir.

Nazirliyin strukturuna daxil olan səhiyyə müəssisələrinin həkim-cərrahlarını, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin, Naxçıvan Tibb Kollecinin müəllim və tələbələrini maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Tarix fənni üzrə elmi-metodik seminar



Noyabr ayının 14-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə 2015-ci ildə ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarında istifadə edilmiş test tapşırıqlarının və yeni tədris proqramı (kurikulum) əsasında hazırlanmış tarix fənni üzrə VIII sinif dərslik komplektlərinin müzakirəsinə həsr olunmuş elmi-metodik seminar keçirib.

Əvvəlcə TQDK Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin müdiri Sabir Məmmədov çıxış edərək muxtar respublikada təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

TQDK-nın şöbə müdiri Afiqə Batıyeva TQDK tərəfindən qəbul imtahanlarında istifadə edilmiş test tapşırıqlarının formaları və yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış VIII sinif dərslik komplektlərinin təhlili ilə bağlı görülən işlər barədə məlumat verib.

Tarix fənni üzrə elmi-metodik seminarın rəhbəri, Bakı Dövlət Universitetinin dosenti Kərəm Məmmədov və Bakı şəhərindəki 170 nömrəli tam orta məktəbin müəllimi Niyaməddin Quliyev 2015-ci ildə ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarında istifadə edilmiş test tapşırıqlarının elmi-metodik baxımdan təhlili və yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış 8-ci sinif dərslik komplektlərinin monitorinqi haqqında tədbir iştirakçılarını məlumatlandırıblar.

Sonra çıxışlar ətrafında müzakirələr aparılıb.

Tarix fənni üzrə VIII sinif dərslik komplektlərinin müəllifləri – AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, Avropa-Azərbaycan məktəbinin müəllimi Hafiz Cabbarov tədbir iştirakçılarının suallarını cavablandırıblar. Qeyd olunub ki, belə seminarların keçirilməsində məqsəd gələcəkdə çap ediləcək dərsliklərin daha mükəmməl olması üçün Azərbaycanın bütün bölgələrindən olan mütəxəssislərin fikir və təkliflərini öyrənməkdir.

Seminarda Bakı şəhərindən gələnlərlə yanaşı, regional bölmə əməkdaşları və müvafiq fənlər üzrə muxtar respublikanın qabaqcıl orta məktəblərinin müəllimləri iştirak ediblər.

Qeyd edək ki, bu gün Azərbaycan dili və ədəbiyyat fənni üzrə elmi-metodik seminar keçiriləcəkdir.

# Test-sınaq imtahanı keçirilib

Noyabr ayının 14-də muxtar respublikanın ümumtəhsil məktəblərinin V-VIII sinif şagirdləri arasında ümumi test-sınaq imtahanı keçirilib.

Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat $10^{00}$-da başlayıb və iki saat yarım davam edib.

Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb. Məlumat üçün bildirək ki, test-sınaq imtahanında şagirdlərə iş nömrəsi verilib və kodlaşma aparılıb. Həmin iş nömrəsi vasitəsilə şagirdlər imtahanın nəticələrini ***www.istedad21.com*** saytından öyrənə bilərlər.

**Xəbərlər şöbəsi**

## Dədəmiz Qorqud demişdir:



*-Qız anadan görməyincə öyüd almaz. Oğul atadan görməyincə süfrə yaymaz.*

* * *

*-Ata malından nə fayda, başda ağıl olmasa.*

* * *

*-Bir igidin Qara dağ yumrusunca malı olsa, yığar-toplayar, qismətindən artığını yeyə bilməz.*

* * *

*-Oğul atanın yetirməsi, iki gözünün biridir. Ağıllı oğul olsa, ocağının közüdür.*

* * *

*-Doğru yolu görürkən, əyri yoldan gəlməyəlim.*

## Vətənə, xalqa, dövlətə bağlılıq yolu

***Təzadlarla dolu olan yaşadığımız həyatda insan ömrü çox qısadır. Ulu Dədə Qorqud deyirdi: "Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya". Məsələ bu qısa zaman kəsiyində ömrü necə yaşamaqdır ki, cəmiyyət üçün faydalı işlər görə biləsən. Bu ömrü kamil insanlar öz yaxşı əməlləri ilə, necə deyərlər, uzada bilirlər. Həmin əməllərin fövqündə dayanan isə Ulu Tanrının bizə bəxş etdiyi ömrü doğruluqla başa vurmaq, həyatda doğru yol tutmaqdır.***

Bu yolu seçənlər, bu yolda çətinlikləri dəf etməyi bacaranlar mənzil başına çatıb arxaya dönəndə qət etdiyi yolun doğruluğunu, bir qədər obrazlı desək, şirinliyini görürlər. Cəmiyyət qarşısında alnıaçıq, üzüağ olduqları üçün ürəkdolusu nəfəs alırlar. Bu da ulu Dədə Qorqudun tövsiyəsidir: Doğru yolu görürkən, əyri yoldan gəlməyəlim.

Cəmiyyət öz inkişafı tarixində dəyişən müxtəlif mərhələlərdən keçir. Quruluşlar dəyişir, hakimiyyətlər bir-birlərini əvəz edir, dünənlə bu gün arasındakı fərq dəyərləndirilir. Dəyişməyən isə ən qiymətli dəyər kimi doğrunun doğru kimi bütün dövrlərdə öz mövqeyini saxlaması olub.

Doğruluq ciddi əxlaqi problemdir. Bu hiss, bu mənəvi keyfiyyət insanın daxili təmizliyidir, saflığıdır, mənsub olduğu xalqa sevgi və məhəbbətidir, dövlətə və dövlətçiliyə sədaqətidir. Doğruluq obyektivlik meyarıdır, insan əməyinin əsl qiymətini verən ölçüdür. Yalnız bu yolla güclü şəxsiyyətə çevrilmək olar.

Doğru yolla mənalı ömür sürmək, xalqa, cəmiyyətə fayda vermək, hər bir şəraitdə haqqa, ədalətə qahmar çıxmaq olar. Bu yoldan sapanlar yalnız özünü və ən yaxın adamlarının mənafeyini düşünür, onlar heç zaman yıxılana arxa durmur, haqqı tapdanana tərəfdar çıxmırlar. Suyu bulandırmaq, ürəyi sındırmaq, ara qarışdırmaq belələri üçün həyat devizinə çevrilib. Doğru yol seçən əsl vətəndaş həmişə yüksəkdə duraraq cəmiyyətdə fəal həyat mövqeyi tutur, vicdanının susmasına yol vermir, yaşadığımız günlərə layiq olmağa çalışır.

Ulu öndərimiz Heydər Əliyev doğru yolu, haqq-ədalət yolunu tutan insanlara böyük dəyər verirdi. Çünki görkəmli dövlət xadimi özü də bu yolun yolçusu idi. Bu gün bu yol davam etdirilir.

Dədə Qorquddan üzübəri gələn bu yol milli-mənəvi dəyərlərimizdən keçib. Öz qiymətini saxlayıb və göstərib. Bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızda da alternativi olmayan bu doğru yol diyarımızı inkişaf və tərəqqinin yeni müstəvisinə gətirib çıxarıb. Kiçik dövlət sayılan ailədə, uşaq bağçasında, orta məktəbdə, ali təhsil müəssisələrində bu yola sadiqlik yüksək səviyyədə formalaşdırılıb. Naxçıvanda haqq-ədalət yolunun uca zirvələr fəth etməyin ən düzgün yolu olduğu artıq sübuta yetirilib. Bu gün hər bir naxçıvanlının dövlətə və dövlətçiliyə sədaqəti doğru yolda olmasının ifadəsidir. Dövlətə və dövlətçiliyə sədaqəti isə insanların həyat səviyyəsində, yaşayışında bütün çalarları ilə görmək olar. Doğru yol naxçıvanlıların qurub-yaratmaq əzmini günü-gündən yüksəldir, gənclərin, yeniyetmələrin doğma torpağa, xalqa, Vətənə bağlılığı, onun taleyinə cavabdehlik hislərini gücləndirir, ən qiymətli sərvət olan müstəqilliyimizi qorumağa, onu daha da möhkəmləndirməyə çağırır.

Naxçıvanlılar görürlər ki, bu yol müqəddəs yoldur – davam etdikcə uğurlarımız da artır. Həmişə doğru yolda olaq.

**M.MƏMMƏDOV**

## Ümumdünya Diabet Günü ilə əlaqədar tədbir

*14 noyabr – Ümumdünya Diabet Günü ilə əlaqədar Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbdə məktəb psixoloqlarının, uşaq birliyi rəhbərlərinin, valideyn komitəsi sədrlərinin və valideynlərin iştirakı ilə seminar keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq problemləri şöbəsinin müdiri Rəşad Kərimov, Endokrinoloji Dispanserin bölmə müdiri, həkim-endokrinoloq Aysel Dünyamalıyeva, Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin baş inspektoru, polis baş leytenantı Fariz Nəsirov, Təhsil Nazirliyinin Ümumi şöbəsinin aparıcı məsləhətçisi Ayşən Əsgərova çıxış edərək muxtar respublikada uşaqların təhsili, asudə vaxtının səmərəli təşkili, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası ilə bağlı həyata keçirilən tədbirlərdən, uşaqların inkişafı, müasir bilik və vərdişlərə yiyələnməsi üçün yaradılan hərtərəfli şəraitdən bəhs ediblər.

Bildirilib ki, ölkəmizdə şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyənləşdirən, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyən "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı" təsdiq edilib. Qeyd olunub ki, muxtar respublikada diabet xəstələri üçün cihaz və testlər hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur. Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanmasına şərait yaradıb.

Diqqətə çatdırılıb ki, hazırda muxtar respublikada 41 nəfəri məktəbyaşlı, 5 nəfəri bağçayaşlı olmaqla, ümumilikdə, 46 nəfər diabet xəstəliyi olan uşaq qeydiyyatdadır. Bu uşaqların hər biri dövlət qayğısı ilə əhatə olunub.

Tədbir iştirakçılarına müvafiq mövzuda broşürlər paylanılıb.

Sonda Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin direktoru Hökümə Mahmudova keçirilən tədbirə görə təşkilatçılara minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## "Kitabi-Dədə Qorqud" türk xalqlarının tarixini bütöv şəkildə əks etdirən salnamədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 25 iyul 2015-ci il tarixli Sərəncamına əsasən, muxtar respublikada silsilə tədbirlər keçirilməkdədir. Bu tədbirlərin davamı kimi, "Naxçıvan" Universitetinin Xarici dillər fakültəsinin tələbələri tərəfindən "Kitabi-Dədə Qorqud" dastanındakı "Uruzun dustaq olduğu, Qazan xanın onu xilas etdiyi boy" səhnələşdirilmişdir.

Tamaşa başlamazdan əvvəl universitetin rektoru, professor İsmayıl Əliyev çıxış edərək bildirmişdir ki, "Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim və möhtəşəm abidələrindən biridir. Bu abidə Azərbaycan türkünün qədim tarixini, adət-ənənəsini, etnik-estetik görüşlərini, mifik baxışlarını, bir sözlə, maddi və mənəvi dünyasını, türk xalqlarının tarixini bütöv bir şəkildə əks etdirən salnamədir. Rektor onu da diqqətə çatdırmışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyev dastanın dünya miqyasında təbliği və Azərbaycanda adının əbədiləşdirilməsi, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi haqqında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması haqqında 20 aprel 1997-ci ildə Fərman imzalamışdır. Həmin fərmandan sonra Dədə Qorqudun adının Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında əbədiləşdirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Ulu öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı da mahiyyət etibarilə bu böyük Azərbaycançılıq abidəsinin dünya mədəniyyəti səviyyəsində dəyərləndirilməsinin məntiqi davamıdır.

Sonra tədbir iştirakçıları tamaşaya baxmışlar. Tamaşa alqışlarla qarşılanmışdır.

**Nuray ƏSGƏROVA**

## Ordubadda Dövlət Bayrağı Günü ilə bağlı konsert



1990-cı ilin 17 noyabrında ilk dəfə Naxçıvanda ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi yenidən qaldırılmış, sonra bu bayraq bütün Azərbaycan üzərində dalğalanmağa başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 17 noyabr tarixli "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" Sərəncamına əsasən, bu ildən başlayaraq muxtar respublikamızda 17 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Dünən bu münasibətlə Ordubad Rayon Mədəniyyət Evində Naxçıvan Dövlət Filarmoniyası Kamera Orkestrinin konserti olmuşdur. Azərbaycan Respublikasının Xalq artisti, Naxçıvan Dövlət Filarmoniyası Kamera Orkestrinin bədii rəhbəri və dirijoru Çingiz Axundovun başçılıq etdiyi kollektivin ifasında əvvəlcə Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfovun ifasında "Azərbaycan" mahnısı səsləndirilmişdir. Əli Davudinin ifa etdiyi "Dahilər dühası" mahnısı konsert iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır.

Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərovun, Gülyanaq Fərzəliyevanın, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Elçin Nağıyevin, Yaşar Qurbanovun ifasında Azərbaycan bəstəkarlarından Tofiq Quliyevin "Bakı haqqında mahnı", Süleyman Ələsgərovun "Vətənimdir" romansı, Cahangir Cahangirovun "Alagöz", Vasif Adıgözəlovun "Naz-naz", Səid Rüstəmovun "Getmə", Rauf Hacıyevin "Azərbaycan", Mehriban Əhmədovanın "Ana" mahnıları səsləndirilmişdir.

Konsertdə tamaşaçılara simfonik əsərlərdən də fraqmentlər təqdim olunmuş, sonda bütün ifaçılar birlikdə tanınmış Azərbaycan bəstəkarı Eldar Mansurovun "İlhamla sabaha" mahnısını ifa etmişlər.

## Ustad dərsləri keçilmişdir

**Babək Rayon Uşaq Musiqi Məktəbində noyabrın 12-də xalq çalğı alətləri, 13-də isə fortepiano üzrə ustad dərsləri keçilmişdir.**

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Pərvin Həsənov ustad dərslərinin keçilməsinin məqsəd və əhəmiyyətindən danışmışdır. Qeyd olunmuşdur ki, ustad dərslərin keçilməsi uşaq musiqi məktəbləri şagirdlərinin yaradıcılıq fəaliyyətinin, təhsilin yüksəldilməsinə xidmət edir.

Tədbirin ilk günü keçilən ustad dərslərində muxtar respublikanın tanınmış tar, kamança, nağara müəllimləri şagirdlərə dərs keçmiş, milli musiqi alətlərimizin incəlikləri haqqında maraqlı söhbətlər aparmışlar.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova tədbirin ikinci günü fortepiano ixtisası üzrə ustad dərsi keçmiş, şagirdlərin ifalarını dinləmiş, məsləhət və tövsiyələrini vermişdir.

**Əli RZAYEV**

## "Naxçıvan" Universiteti əməkdaşlarının ABŞ-da növbəti elmi məqaləsi dərc olunmuşdur

Bu yaxınlarda "Naxçıvan" Universitetinin əməkdaşları Zülfüqar Zülfüqarovun və Əli Cabbarovun ABŞ-ın 700-dən çox elmi jurnalı özündə birləşdirən nüfuzlu "OMICS International" nəşriyyatının "Journal of Tourism & Hospitality" jurnalında elmi məqaləsi dərc olunmuşdur. "XXI əsrin turizmi: "Böyük millət" təhlükəsinə qarşı sülhməramlı qüvvə" adlanan elmi məqalədə müasir dövrdə beynəlxalq turizmin inkişafında qlobal sülhün və beynəlxalq əməkdaşlığın əhəmiyyətindən, habelə turizmin ölkələrarası dinc münasibətlərin yaranmasındakı rolundan bəhs olunur. Beynəlxalq terrorizmin, habelə keçmiş SSRİ ərazisindəki radikal separatçı qurumların və digər xalqlara qarşı qeyri-tolerant münasibət göstərənlərin beynəlxalq turizmin inkişafına vurduğu zərərlər və bununla yanaşı, dünya turizminin inkişafı fonunda belə üzdəniraq qüvvələrə qarşı turizmin sülhməramlı gücü elmi məqalədə araşdırılmışdır. Məqalədə radikal erməni separatizminin Azərbaycan Respublikasında turizmin inkişafına vurduğu zərərlər, mədəniyyətlərarası mübadilədə qədim Naxçıvanın tutduğu mövqe vurğulanmış, mövzu ilə bağlı geniş həcmdə elmi istinadlar verilmişdir.

**Xəbərlər şöbəsi**


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 862